Ədəbiyyat qəzeti №51-52 27 dekabr 2024-cü il 29

# Yeni nəşr



Azərbaycan Yazıçılar Birliyinin üzvü, gənc yazar Nuray Nəzərovanın "Mavi işıq" adlı nağıl-pyesi çapdan çıxıb. "Qanun" nəşriyyatında çap olunan nağıl-pyesdə Azərbaycan və dünya nağıllarından bizə tanış olan qəhrəmanlar iştirak edir.

Uşaqların maraq dünyasına cavab vermək istəyi ilə yazılan bu nağıl-pyesdə yola çıxan iki kökənin başına gələn əvalatlardan söhbət açılır. Qırmızıyanaq və Çilli adlı bu iki kökənin həyat hekayəsi dostluğu, sevgini və sədaqəti təbliğ edir.

Kitab kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulub.